# Üfüqə doğru gedən ağ yola bənzəyim...

**Yaşanılmayan 48 gün**

İnsan ömrünün o qədər bənzətmələri var ki... Ədəbi dilin özülü də gerçək həyatdır axı. Təbiətin hər məfhumu ta yaranışdan insan adıyla bağlı. İnam da, inad da güman da, yalan da, yaşam da, ölüm də! Güllər də, daşlar da həmçinin. Axı insan ən güclü varlıqdır; sevinci də, qəmi də, ağrı - acını da yalnız o tarazlaya bilir. Yaşamına inam və güman məfhumları yolçu olur, arzular toplamı isə insan ömrünə kompas olaraq həyatını tənzimləyir. Məqsədsiz yaşamaz insan, sabahını düşünər; sabahların da sabahlarını düşünərək yaşamına davam edər. Bir körpənin aqil insan kimi yetişməsi onun həyatının tənzimi deyilmi?!. Körpəni böyütdükcə, onun həyat yoluna cığırları açdıqca məqsədli şəkildə yaşayır insan. Bu günündən daha gözəl sabahlar üçün yaradır, zamanın gərdişilə mübarizə aparır, gələcək yaradır. Və bu gələcək öz zamanlarını dəyişdikcə insan həyarı da ömrünü "xərcləyir", sevinc üçün, kədər üçün. Bəzən də arzu yelkənini sona qədər sürə bilmir insan, həyat çilləkənləri yoluna diyirlənir...

Bahar fəslinin hər ötən günü Könülü, Mahiri və ailəni sevinc dolu hisslərlə həyəcana yükləyirdi. Keçən ilin iyulunda əsgər gedən övladlarının dost-tanışlar və qohumlarla necə qarşılayacaqlarını düşünür, təklif və planlarını hazırlayırdılar. Övladları Məhəmməd ali məktəbi bitirən kimi həqiqi hərbi xidmətə getmişdi. Onun həm tələbəlik, həm də əsgərlik həyatını başa vurmasına görə gözaydınlığı qəbul edəcəkdilər.

Vətən keşiyində dayanan övladları "kişilik" məktəbinin müdavimi kimi iyilda qayıdacaqdı. Sanki evin bütün divarları, həyətin hər künc-bucağı onun gəlişinə hazırlaşırdı. Bahar çiçəkləri də bir-birilə bəhsə girmişdi. Ailə əsgər bala - Məhəmmədlə telefonla danışmış və artıq onun dilindən: "Gəlməyimə 49 gün qalmışdı, 1-i də belə keçdi, 48 günüm qaldı" - sözlərini eşitmişdilər .

Həyəcan dolu 48 gün...



**Arzumun yelkəninə ömrüm dayazlıh edir...**

Cəmi 22 yaşı vardı... Qəlbi arzular toplumu idi Məhəmmədin. Xəyalında o arzuları birbəbir reallaşdırır, bəzən isə insan arzularına ömürlərin dayazlıq etdiyini düşünürdü. Gecələrə fənər olmaq, buludlara qanad, sukutlara nəfəs olmaq, qara torpaq üstündə üfüqə doğru gedən Ağ yola bənzəmək istəyirdi... Doğulub böyüdüyü, təhsil aldığı orta məktəb və ali məktəb körpəykən onu mükəmməl bir gənc kimi yetişdirmişdi; yaşından tez böyütmüşdü. Əlbəttə, bildiyimiz kimi, hər bir insanın dünyagörüşünün formalaşmasında onun ta uşaqlıqdan aid olduğu mühit başlıca rol oynayır. Vətənpərvərlik hissi onun xaraktelrində ailəsilə bərabər oxuduğu məktəbdə daha da zəngin formada formalaşmışdı. Oxuduğu məktəb 1-ci Qarabağ müharibəsi şəhidinin adını daşıyırdı. Məktəbin Zəfər qazanan şəhidləri Aqşin Ənvərli və Elməddin Mustafayev də bu məktəbin məzunları idi. Onlara məktəb kollektivinin hörmət və sevgisi, adlarının daima dillərdə dastan olması, xatirələrinin əziz tutulması Məhəmmədin də mənəvi cəhətdən zəngin yetişməsinin təzahürü idi.

Məhəmməd Vətəninə, elinə-obasına bağlı bir gənc idi. O, Vətənin hər qarışını müqəddəs sanar, valideyn, müəllim, özündən böyüklərə və kiçiklərə hörmət və özünəməxsus qayğı ilə yanaşardı. Qulluq etdiyi hərbi hissədə də intizamı və düşüncə tərzi ilə seçilərdi. Elə bu seçim, bu xarakter, bu istək və arzular, vətənpərvər və milli mənəvi zənginlik onu məhz Məmməd Araz şeriyyətində deyildiyi kimi:

***Qara torpaq üstündə***
***Üfüqə doğru gedən***
***Ağ yola bənzəyim,*** - arzusunu könlünə yazdı, bu yola "sürüklədi" və anası Könülün yaşam yollarına bir qaranlıq "çökdürdü"...

***Mən getsəm, saç yonub dağların çəni,***
***Ağlayan bir ana, bir bacı kimi,***
***Təbiət düşünər, düşünər məni...***

Düşündü təbiət, bütün çiçəkləri qoynuna səpdi, bahar ömürlü körpə əsgərinə bahar qoxusunu havaya "hopdurdu"... Buludlar göz yaşını yağışa çevirib ağladı Məhəmmədə, gecələr şimşəklər üfüqə doğru gedən ağ yolu hayqırtı ilə işıqlandırdı... Bu ağ yol şəhadət yolu, zirvələr fatehlərinin müqəddəs və ali yoludur!

**Məhəmməd dünyası**

Qarayev Məhəmməd Mahir oğlu 2001-ci ildə, noyabrın 6-da Qəbələ şəhərində dünyaya göz açmışdı. Şəhid Nicat Apayev adına şəhər 4 saylı məktbdə orta təhsil almış, 2018-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes-menecment fakültəsini əla qiymətlərlə bitirmişdi. 2022-ci ilin iyulun 22-sində həqiqi hərbi xidmətə getmişdi. Əvvəlcə - 3 ay Gəncə şəhərində təlim müddəti keçdikdən sonra Kəlbəcərdə əsgəri xidmətinə davam etmişdi; atıcı idi. Həmişə xarakteri ilə ətrafındakılardan fərqlənən Məhəmməd valideynlərinə deyərdi ki, elə bir insan olacağam ki, hamınız mənimlə fəxr edəcəksiz! Əsgərliyə gedəndə də, ata-ana öyüdünü də bu sözlərlə cavablandırmışdı. Dedi də, əməl etdi də...

May ayının 12-də erməni terrorçularının yaratdığı yeni "çaxnaşmada" şəhadətə qovuşdu. 2 saat əvvəl ailəsilə telefonla əlaqə saxlayan Məhəmmədin dünyasını dəyişməsi ailəyə heç də inandırıcı olmamışdı əvvəl. Ancaq ürəkləri dələn, yandıran o müdhiş xəbər doğru idi...

Ona yalnız ailəsi, əzizləri, sinif və universitet, əsgər yoldaşları deyil, bütün onu tanıyanlar, dostları və Qəbələ əhalisi göz yaşı axıtdı, həm də buludlarla birgə. Gözaydınlığa gələsi qonaqları həyətdə necə yerləşdirəcəyini düşünən valideynlər... körpə Məhəmməd üçün Mahir Qarayevin həyət qapısında 3 çadır qurulmuşdu... Hamı Məhəmmədlə vidalaşmağa gəlirdi. Axı Məhəmməd 48 gündən əvvəl Bayraq libasına bürünərək gəlmişdi...

Valideynlər həmişə arzular ki, övlad çiynində bu dünyadan köçsünlər! Həmin gün isə Məhəmməd anası Könül müəlliməninin, atası Mahir ustanın çiynində dünyasını, məkanını dəyişirdi... Ana oğlunun "salacasını" çiyninə götürmüşdü...

Xalqın şairi Məmməd Arazın bu şeri qəlbləri ağradır həmişə. Bu gün isə körpə Məhəmmədin ailəsinin düşüncələrində, anasının dilində bu şeir:

***Hardasan, ey qəlbimin kimsənəsi,***
***hardasan?***
***Hardasan, ey qəlbimin bir dənəsi,***
***hardasan?..***
***Hardasa, yaxşılardan birisən!..***

Məhəmməd könüllərdə, yaddaşlarda xatirələrdə, şəhid adı ilə insanlığın ən uca zirvəsindədir!..

Məkanın cənnət olsun, bahar qoxulu, bahar ömürlü Şəhidim!

**Bibixanım İSAYEVA.**

# Bir parça buludda Bir dəniz yükü

**(Əvvəli 6-cı səhifədə).**

Vətən, torpaq, xalq sevgisi onun görən gözlərində, düşünən beynində, döyünən ürəyində, döyüşən, silah tutan əllərində idi. Uşaqlıqdan idmanla məşğul olan, ingilis dilini belə mükəmməl öyrənən, rəssamlıq, yazarlıq qabiliyyəti olan Ceyhun özünü bu Vətən üçün mükəmməl bir övlad, müsəlləh bir əsgər kimi hazırlamışdı. Orduya, təlimlərə gedəndə isti ana nəfəsini duymadan, ana qoxusu almadan getdi. Anam bilməsin dedi, istəmirdi ki, ana qəlbinə təlaş, ata ürəyinə həyəcan dolsun! Dayısına və xalalarına dəfələrlə ailəsinə bu haqda məlumat verməməsini xahiş etmişdi. Və o, döyüşlərə getdi...

**4 rəqəmi...**

Dünyaya saat 4-də göz açmışdı. 4 yaşında bağçaya getmişdi, 4 il universitet oxumuşdu. 4 gün 2016-cı ilin Aprel döyüşlərində döyüşmüşdü. 2020-ci ilin sentyabrın 27-sində başlanan 2-ci Vətən müharibəsində də 4 gün igidliklə döyüşdü. Onun silahdaşları döyüş şücaətindən qürurla danışırdılar, o, alim döyüşçü ləqəbi ilə tanınmışdı. Saat 4-də də şəhadətə qovuşmuşdu.

26 il, 4 ay 10 gün, 4 saat təmiz, dürüst və şərəfli ömür yaşadı Ceyhun! Ömrünün 14 ilini Azərbaycanda-Bakıda-Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yaşadı. Və bu millətin, xalqın, Azərbaycanın qəhrəman oğlu oldu. Şəhadətə qovuşaraq hamının igid oğlu oldu; əbədiyaşar, baharömürlü oğlu!

26 illik ömrünün son 4 günlük həyat yolu, ömür xatirəsi Füzuli torpağında al-qırmızı qanla torpağa yazıldı. 1 oktyabrda öz döyüş yoldaşlnı xilas etmək istərkən başından yaralanaraq şəhadətə qovuşdu Ceyhun! Ondan xəbər ala bilməyən dayısı Gəray (o, 1-ci Qarabağ müharibəsi veteranıdır) Füzuliyə yola düşür və Daşburuna çatanda hərbi komissarlıqdan gələn zəng Ceyhunun şəhid olması xəbərini ona çatdırır...

**Ana naləsinə həsrət tabut...**

Ceyhunun nəşi gətirilən zaman COVİD-in, pandemiyanın tuğyan etdiyi bir vaxta təsadüf etdiyi üçün ailəsi Azərbaycana, Ceyhunun dəfninə gələ bilməmişdi. Ən acısı isə o idi ki, nə ata, nə ana, nə qardaşları - Arzu və Kamal onunla son dəfə vidalaşa, şəhid əzizlərini bağrına sıxa bilmədilər! Ondan çox-çox uzaqda, yad ölkədə odsuz-ocaqsız "yandılar"...

Ana naləsindən tabut "diksinmədi", ana göz yaşı o tabutu islatmadı, ata fəryadı tabutu silkələmədi... Dayı və xalalarının nalələri ilə torpağa tapşırıldı ədalət toplusu qanunlarının gələcək carçısı... Torpağa tapşırıldı sevdiyi qızın göz yaşlarında boğulan Ceyhun sevgisi... Torpağa tapşırıldı qardaşlarına verdiyi xoş vədləri, toy etmək üçün təyin etdiyi ay, gün... Ailəsinə xoş günlər yaşatmaq arzusu... Ondan qalan bahar ömrü, qəhrəman adı, şəhidlik zirvəsi, xatirələri çözələyən təltif və mükafatlar, igidliyini təsdiq edən dövlət təltifləri - "2-ci Qarabağ Müharibəsi Qəhrəmanı", "Füzulinin azad olunması uğrunda" medalları və "Cənnət qoxulu şəhidim" döş nişanları oldu.

Bir ana hər gün Şəhidlər xiyabanında (Sabunçu rayonu), baş daşına sinəsini söykəyərək ürəyinin döyüntüsünü, nəfəsini, göz yaşlarını oğul balasına hiss etdirmək istəyir, həm də realcasına... 2 övladı xatirinə mücadilə ilə yaşayan bu ana Ceyhunun həsrət və dərddən qranitə dönmüş, Ceyhun dərdinin hər gün qəlbini əritdiyi ən uca adın sahibi , şəhid anası olsa da, bu ali ad onun dərdini heç azaltmır, əksinə, hər gün bala dərdi, acısı qəlbində bir daş kimi asılır, böyüyən bir daş kimi...

Bir parça buludda bir dəniz yükünə çevrilən Ceyhun isə göylərdən daima "Ağlama ana!" - deyərək onun göz yaşlarını buluda çevirib, ondan uzaqlaşdırmaq istəyir!..

Məkanın cənnət olsun, Şəhidim!

**BİBİXANIM.**

# 28 May - Müstəqillik Günüdür

Milli istiqlal tariximizin şərəfli səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, qısa vaxt ərzində həyata keçirilən islahatlar və insan hüquqları sahəsində atılan addımlar, dövlətçiliyimizin möhkəmləndirilməsinə hesablanmışdı. Bolşeviklər tərəfindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilməyən Azərbaycan 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə yenidən öz müstəqilliyini elan etmişdir. Bununla Azərbaycan Respublikası müstəqilliyin ilk illərində böyük təhlükə ilə üzləşsə belə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkəmiz xilas olaraq, sabit inkişaf yoluna qədəm qoymuşdur.

Ulu öndərimizin "Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir" sözləri ümummilli lider Heydər Əliyevin apardığı uğurlu siyasətin nəticəsi olaraq təsdiqini tapmış, Azərbaycan öz müstəqilliyini dünyaya sübut etmiş, istiqlaliyyətimizin daimi, əbədi olmasının əsasını yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin qurub yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan Respublikası indi Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, qarşıya



qoyulan hədəflərə doğru inamla irəliləyir, ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu seçməklə demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün davam edən Vətən Müharibəsində işğalçı Ermənistan ordusunu darmadağın edərək tarixi zəfərə imza ataraq uzun müddət işğal altında olan torpaqlarımızı işğaldan azad etdi. Bu, Azərbaycan xalqının tarixi qələbəsidir.

Müstəqil daxili və xarici siyasət həyata keçirən Azərbaycanın yalnız regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan bir ölkə kimi tanınması, Azərbaycan Prezidentinin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən hərtərəfli düşünülmüş, müdrik siyasət, qazanılmış uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir!